# COP29 könüllüləri paytaxtda "Yaşıl gələcək naminə toxum ək" şüarlı aksiya keçiriblər

COP29 könüllüləri Bakının mərkəzi ərazilərində əhalinin ekoloji fəallığının artırılması və ətraf mühitin mühafizəsi istiqamətində maarifləndirilməsi məqsədilə "Yaşıl gələcək naminə toxum ək" şüarı altında ekoloji aksiya keçiriblər.



COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ekoloji dayanıqlılığın, yaşıl həyat tərzinin təşviqinə yönələn aksiyaya qatılan 50 könüllü yerli sakinləri də kampaniyaya cəlb ediblər.

Tədbir "Zirə Gülçülük" kompleksində start götürüb. Burada könüllülər kompleksin fəaliyyəti ilə tanış olub, müxtəlif bitki növləri və dayanıqlı bağçılıq təcrübələri haqqında məlumat əldə ediblər. Tur başa çatdıqdan sonra könüllülər şəhər sakinlərinə əvvəlcədən hazırlanmış toxum torbalarının paylanılması və dayanıqlı bağçılıq vərdişlərinin təşviqi üçün Hüseyn Cavid parkı, Sahil bağı, İçərişəhər, eləcə də dənizkənarı bulvar ərazisində yerləşən COP29 Məlumat Mərkəzi kimi müxtəlif məkanlara baş çəkiblər. Aksiya çərçivəsində əhali ilə məlumatlandırıcı söhbətlər və sorğular aparan könüllülər paytaxt sakinlərinə ekoloji öhdəlikləri yerinə yetirmək üçün atdıqları addımlar və digər təşəbbüslər barədə suallar ünvanlayıb, müvafiq sahələrdə praktiki məsləhətləri bölüşüblər.

Qeyd edək ki, aksiya COP29 könüllüləri tərəfindən iqlim problemlərində ictimai iştirakçılığı təmin etmək, ətraf mühitin mühafizəsi istiqamətində kollektiv fəaliyyətin vacibliyini vurğulamaq və bu sahədə mövcud problemlərə ictimaiyyətin diqqətini cəlb etmək məqsədləri ilə icra edilən müxtəlif sosial-ekoloji layihələrin tərkib hissəsi və dayanıqlı həyatın təşviqi istiqamətində növbəti addımlardan biridir.

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.7.